## TARİX VƏ ANTROPOLOGİYA

UOT 1(091)

*N.Qocatürk*
*Bakı Dövlət Universiteti*
*Bakı ş., Z.Xəlilov küç., 23*
*E-mail: nqocaturk@ mail.ru*

# HEYDƏR ƏLİYEVİN "AZƏRBAYCANÇILIQ" İDEYASI MÜASİR DÖVLƏTÇİLİYİMİZİN ƏSASI KİMİ

*Qloballaşan dünyada hər bir müstəqil milli dövlət üçün öz varlığını saxlaya bilən ideologiyaya malik olmaq gərəkdir. İdeologiyanın milli dövlət üçün zəruriliyi təkcə bununla məhdudlaşmır. Müasir cəmiyyətin toparlanması üçün ideologiyaya daxili tələbatın olduğunu qəbul etmək gərəkdir. Məsələ ondan ibarətdir ki, kommunikasiya şəbəkəsinin yüksək inkişaf etdiyi və hər tərəfdən cəmiyyəti silkələyən informasiyaların gəldiyi vaxtda* daxili birliyi, *toplumun bütövlüyünü təmin etməyə ehtiyac yaranır. Cəmiyyət çoxsaylı sosial təbəqələrdən ibarət olanda bunun əhəmiyyəti daha da artır. Belə ki, fərqli maraqları olan sosial kəsimləri birləşdirən sosioloji və ideoloji sistemlərin varlığı aktuallaşır. Bəşəriyyət üçün insan faktorunun önəmli olması şərti ilə bir yerdə ideologiya vazkeçilməz amil olur.*

*Azərbaycançılıq ideologiyasının dövlət quruculuğuna ideologiya kimi tətbiqi bu aspektdən dövlətçilik tariximizdə yenilikdir, öyrənilməsi vacib olan cəhətdir. Müasir Azərbaycan dövlətçiliyində Azərbaycançılıq bir ideologiya olaraq elə hazırlandı ki, bütöv toplum onu qəbul etdi. Azərbaycançılığın ideologiya olaraq keçən əsrin əvvəllərində formalaşdırıldığı məlumdur. Lakin müasir Azərbaycan dövlətçiliyində ümummilli lider Heydər Əliyevin təqdimatında o, dərin ideoloji və dövlətçi məna çalarları kəsb etdi. Keçid dövrünün toplumu üçün isə o, başlanğıcda hər şeydən öncə, birləşdirici ideya rolunu oynadı.*

*Açar sözlər:* Heydər Əliyev, Azərbaycançılıq ideologiyası, dövlət, xalq, yaddaş, varis, ənənə

Cəmiyyətin birliyini təmin etmək özlüyündə tam təminedici şərt deyil. Bundan əlavə, toplumun dövlətlə birliyini təmin etmək gərəkdir. Yəni cəmiyyət dövləti müdafiə etməlidir. Bunun üçün cəmiyyətlə dövlət arasında qarşılıqlı etibarlılıq mühiti yaranmalıdır. Onu isə hakimiyyətlə cəmiyyət arasında çoxsaylı informasiya mübadiləsi kanalları vasitəsi ilə etmək mümkündür. Bu kanalların məhz dövlət-cəmiyyət birliyi üçün işləməsi yönləndirici rol oynayan ideologiyaya bağlıdır. İdeologiya cəmiyyət üzvlərini vahid məqsəd, strateji hədəf uğrunda birləşdirir, "hamını eyni oyun qaydaları ilə silahlandırır". Toplumun daxilində bu harmoniya yaranmasa, müasir müstəqil dövlətin mövcud olması imkansızdır [3, s. 236]. Bir sözlə, cəmiyyətin dövlətə sahibliyi onun Milli İdeyasının olmasından asılıdır. Milli ideya cəzbetmə sahəsi kimi toplumu özünə çəkir, eyni zamanda kənar təsirlərdən cəmiyyətin parçalanmasını əngəlləyir.

Cəmiyyət hər yeni təkamül mərhələsində ideoloji sisteminə yeni çalarlar əlavə etməlidir. Bu cür qarşılıqlı adaptasiya şəraitində dövlətlə cəmiyyətin və bütövlükdə ölkə ilə dünyanın birgə təkamülü mümkündür. İdeya toplum üçün gələcəyin obrazını yarada bilirsə, dövlət də bu yolda inamlı addımlaya bilir. İdeologiyanın aparıcı rolunun əsas məqamı bu incəliyə bağlıdır. Toplumun gələcək haqqında konkret təsəvvürlər sistemi olmalıdır. Onun sərhədlərini ideologiya müəyyənləşdirir. İdeologiya bu mənada cəmiyyətin nizamlama

parametridir. Bu parametrə sahib olmayan cəmiyyət mütləq qapalı dairədə qalır, çırpınır [4, s. 109]. Gələcək haqqında təsəvvürlər keçmişin və bu günün dərin təhlili əsasında yaradıla bilər. Bu gün yaxşı işləməyən ideologiya milləti gələcəyə apara bilməz.

Azərbaycanda dövlətçilik ənənəsi ümumi etnodəyərlərdən qaynaqlanan və faktiki olaraq onların təkamül xəttini ifadə edən Böyük Yoldur. O Yolun zaman daxilində son mənzili yoxdur – Azərbaycan dövlətçiliyi əbədidir. Azərbaycan həmişə tolerant, birləşdirici funksiyanı yerinə yetirən ideyalarla zəngin olub. Ona görə də xalqın arxetipində sürətli toparlanma keyfiyyəti vardır. Heydər Əliyev bu keyfiyyəti müasir zamanın tələblərinə uyğun Azərbaycan ideyasına tərəf yönəldə bildi. Yəni toplumun birliyinin hər şeydən öncə Azərbaycanı kültür, dövlət və coğrafi məkan olaraq qorumağa xidmət etdiyini kütlələrə çatdırdı. Bu, böyük bir qələbə idi. Azərbaycanın müasir tarixində dönüş nöqtəsi və uğurlarının əsası idi. Bu dönüş milli dövlət quruculuğunun sonrakı mərhələlərinin fəlsəfəsini hazırlamağın konkret təməlini qurdu.

Azərbaycan üçün bu xəttin indiki tarixi şəraitdə ən optimal olduğunu düşünürük. Çünki Azərbaycan ideyasının bütün mənalarda yaşaması üçün müstəqil dövlətin varlığı əsas şərtdir. Bir neçə əsr Azərbaycanın müstəqil dövlətdən başqa bütün dəyərləri olub – mədəniyyət, əxlaq, elm, ruhanilik, ədəbiyyat və s. Müasir zamanın tələbi elədir ki, dövlətsiz nəinki milli inkişaf, heç adi mövcudluq mümkün deyil. Uzun müddət dövləti olmayan cəmiyyətdə dövlətçilik şüuru çox zəif olur və ya potensial varlıq formasına keçir. Onun aktuallaşması isə mütləq dövlətin varlığını və mükəmməl ideologiyanı tələb edir [2, s. 68].

Sovetlərin dağılmasından sonrakı mərhələdə keçmiş sovet məkanı milliyyətçilik, etnik ayrı-seçkilik, cəmiyyətin xırda qruplara parçalanmasına aparan ideoloji sistemlərlə dolu idi. Bu proseslər bəzi ölkələrdə cəmiyyətin parçalanmasına və ya etnik təmizləmə siyasətinə aparıb çıxardı. Qafqazda bu daha çox Ermənistanda, qismən də Gürcüstanda müşahidə olunur. Ermənistanda etnik mənsubluq sosiomədəni mövcudluğun təməlinə o dərəcədə yerləşdirildi ki, qısa müddətdə ölkədə yalnız ermənilər qaldı. “Ermənistan yalnız ermənilər üçün” şüarı beyinləri və qəlbləri şovinizmlə iflic etdi. Ermənistan cəmiyyəti mənəvi və ideoloji deqradasiyaya uğradı. Ermənilər hələ də sağlam milli ideologiyalarını tapa bilmirlər. Başqasına nifrət üzərində əsrlərlə qurulmuş sistem cəmiyyətdə yalnız ermənilərin yaşadığı şəraitdə işləmir. Və yaxud cəmiyyəti öz içindən yeməkdə davam edir. Hər iki yol Ermənistan cəmiyyətini fəlakətə aparır. Deməli, bu ideologiya şəraitində aqressiya və nifrət kənara yönəlməlidir. Ancaq dünyada indi elə bir situasiyadır ki, xaricə nifrətlə dövlət qurmaq mümkün deyil. Bu da erməni ideologiyasının etnik mənsubluğa dayanan şovinist növünün iflası deməkdir. Gürcüstan da qismən bu fəlakəti yaşayır, təəssüf ki, orada da hələlik müasir tələblərə cavab verən, konstruktiv ideologiya gözə dəymir [5, s. 225].

Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanda isə etnik mənsubluğu deyil, dövlət - vətəndaş birliyi anlayışının əsas götürülməsinin perspektivi tam ortaya qoyuldu. Dövlətçilik şüurunun önə çıxması avtomatik olaraq təbliğatda əsas ağırlığın etnik mənsubluqdan kənarda olan dəyərlərə keçirilməsini nəzərdə tutur. Bu aspektdə Heydər Əliyevin dəyər-məqsəd arxetipləri ilə hakimiyyət sintezləşdirici arxetipləri dahiyanə şəkildə uyğunlaşdırdığını görürük. Yəni faktiki olaraq türkçülük Azərbaycanın müstəqil dövlətçilik tarixində ilk dəfə olaraq etnik mənsubluq aspektindən siyasi birlik forması aspektinə transfer edildi. Millət anlayışı siyasi mənada işləndi. Heydər Əliyev üçün Azərbaycançılıq ideologiyasının əsas prinsiplərinin dərk edilməsində dövlətçilik şüurunun aktuallaşdırılmasının əsas rol oynaması konkret tarixi və elmi əsasa malikdir. Azərbaycançılıq Ümummilli Liderin təqdimatında ənənə ilə müasirliyin optimal sintezidir. Onun məfkurə olduğunu hər kəs bilir. Ancaq əsas gücünün və fəlsəfi mahiyyətinin incəliklərini də dərk etmək gərəkdir [6, s. 241].

Azərbaycançılıq hər şeydən öncə Azərbaycan ideyasının dövlətçilik ənənəsindən gələn varisliklə müasirliyin tələbi olan yeniləşmənin evristik gücünü nümayiş etdirdi. Heydər Əliyev bu inamı müasir milli dövlətçiliyin ən yaxşı modeli sayılan və Qərbin sürətli inkişafını təmin edən demokratiyanı təbliğ etdi [7, s. 409].

Xalq demokratik milli dövlətin üstünlüklərini sürətlə qəbul etdi və bunda müasir dövlət qurmanın əsas modelini gördü. Bu ustalıqla dövlətçilik ənənəsində varisliklə müasirləşmənin uyğunluğunu formalaşdırmaq Heydər Əliyevin milli dövlətçilik tarixində əvəzedilməz yerini və rolunu göstərməkdədir.

Bizim dövlətçilik tariximizdə ilk dəfə olaraq dövlət quruculuğu bu dərəcədə əsaslanmış və sivil qanunlara dayanan modelə keçirdi. Ən əsası isə kütlənin bu yolun düzgünlüyünə inamı yaradılırdı. Deməli, Azərbaycançılıq Azərbaycan ideyasında varisliklə müasirləşmənin dövlət anlayışı çərçivəsində keçid dövrünün tələblərinə uyğun konkret cizgilər aldı. Bu, onun növbəti, daha geniş mənalara malik inkişaf mərhələsi üçün sarsılmaz təməl olmaq rolunu oynaya bildi [1, s. 83].

Keçid dövründə Azərbaycan ideyasını dövlətçilik ideyasına uyğunlaşdırmağın fəlsəfəsi çox dərindir. Heydər Əliyev dərin elmi təhlil və siyasi proqnozlar əsasında ümummilli platformanı yarada bildi. Keçid dövründə onun dövlətçilik strategiyasının qayəsini bu məqam təşkil edirdi. Həmin xəttin inkişaf etdirilməsi ayrıca bir vəzifədir. Lakin Heydər Əliyevin siyasi varisi onun öhdəsindən gəlmək üçün Ulu Öndərdən lazımi siyasi, elmi və metodoloji hazırlığı almalı idi. Bu şərt daxilində Heydər Əliyevin əsasını qoyduğu Azərbaycanın müasir, milli və demokratik dövlət quruculuğu konsepsiyası özünün növbəti inkişaf mərhələsinə qədəm qoya bilərdi. Yəni dövlət quruculuğu ənənəsində yeni şəraitə uyğun modernləşmə xətti konkret inkişaf cizgilərini almalı idi.

Gələcək haqqında təsəvvürlər keçmişin və bu günün dərin təhlili əsasında yaradıla bilər. Bu gün yaxşı işləməyən ideologiya milləti gələcəyə apara bilməz. Azərbaycançılığn keçid dövrü və ondan sonrakı mərhələ üçün konkret ideoloji sistemə çevrilməsi zərurəti buna bağlıdır. Onun bütün dövrlər üçün ümumi prinsipləri müəyyənləşdirilib. Etnik mənsubluğundan asılı olmayaraq Azərbaycan vətəndaşı olmaq azərbaycançı olmağı tələb edir. Azərbaycan vətəndaşı olmaq təkcə bu ölkənin sərvətlərindən, dövlətin verdiyi bütün hüquqlardan istifadə etrməyi yox, həm də məsuliyyət daşımağı nəzərdə tutur [6, s. 295].

Heydər Əliyevin formalaşdırdığı bu mövqe sovetlərin dağılmasından sonrakı mərhələdə cəmiyyəti toparlamağın ən səmərəli üsulu idi. Çünki bayaq da dediyim kimi, o ərəfədə bütün sovet məkanı milliyyətçilik, etnik ayrı-seçkilik, cəmiyyətin xırda qruplara parçalanmasına aparan ideoloji sistemlərlə dolu idi. Beləliklə, Heydər Əliyevin milli dövlət quruculuğu xətti həm milli tarixə, dəyərlərə dayanır, həm də müasir dövrün tələblərini nəzərə alır. Dövlətçiliyin ideoloji əsasları bu iki aspektin sintezindən ibarətdir. O, azərbaycançılıq ideologiyasıdır.

Azərbaycançılıq məhdud milliyyətçiliyi inkar etdiyi kimi, mücərrəd kosmopolitizmi də qəbul etmir. Öz milli kökü üzərində bütün xalqların eynihüquqlu olmasını və Azərbaycan ideyası ətrafında birləşməsini nəzərdə tutur. Azərbaycan ideyası isə dövlət, coğrafi məkan, kültür məkanı, vahid iqtisadi məkan kimi anlayışları özündə ehtiva edir [7, s. 372].

Heydər Əliyev müasir şəraitdə Azərbaycan ideyasına sadalanan aspektlər üzrə məzmun vermişdir. Onun dövlətçiliyin ideoloji əsasının hazırlamasında əsas xidmətlərindən biri bundan ibarətdir.

Azərbaycan ideyasının əsas tərəflərindən biri də demokratiyadır. Heydər Əliyevin azərbaycançılığa verdiyi yeni məzmun çalarında demokratiya mərkəzi yer tutur. Cəmiyyət demokratik olanda özünü inkişaf etdirmə mexanizmi güclü olur. Bu cür toplumlarda birlik meyarları kifayət qədər uzun müddətlidir. Azərbaycan ideyası bu mənada ənənə ilə müasir

dövlət quruculuğunun vəhdətidir. Milli ilə ümumbəşərinin konkret sintezidir. Bu sintez statik xarakter daşımır, o, dinamikdir və tarixən yeniləşə bilir.

Dövrün aktual saydığı aspektlər üzrə faktorların Azərbaycançılıqda nəzərə alınmasının ideoloji əsası vardır. Bu, Azərbaycanın daim müasirləşmə kursuna sadiq qalması şərti ilə tənzimlənir. Müasirləşmə cəmiyyətimiz üçün dövlətçiliyin inkişafı baxımından vacib məqamdır. Onun başlıca dayağı isə demokratikləşmədir. Heydər Əliyev Azərbaycançılıq məsələsində demokratiyanı daim dövlətin inkişafı ilə yanaşı qoyurdu [5, s. 301].

Heydər Əliyevin əsas dayağı məhz xalq və onun ənənələri idi. Xalqın mənəvi dəyərlərinə, tərbiyə sisteminə, öz tarixinə və adətlərinə olan sədaqəti Heydər Əliyevə mürəkkəb situasiyada ölkəni sabitlik müstəvisinə çıxarmağa imkan verdi. Bununla da, 1993-cü ildən başlayaraq, Azərbaycanda müstəqil dövlətçiliyin mövqeyini gücləndirmək, milli dövlətçiliyin əsaslarını möhkəmlətmək və onun regionda geosiyasi çəkisini artırmaq xətti üstünlük təşkil etdi. Bu mərhələnin əsasında sabitlik mərhələsi dururdu ki, cəmiyyətin bütün sahələrdə özünü toparlaması ilə xarakterizə olunurdu. Onun aparıcı hissəsi isə siyasi sabitliyin yaranması olmalı idi. Ona görə də 1995-ci ildən başlayaraq, Azərbaycanın müstəqil dövlət olaraq möhkəmlənməsi, iqtisadi yüksəlişin təməlinin formalaşdırılması dövlətçilik baxımından prinsipial mənaya malikdir.

Burada birinci mərhələ olaraq daxili sabitliyin yaranması və dövlətin regional fəaliyyətinin nümayişi, iqtisadi inkişafın əsaslarının formalaşması, ikinci mərhələ iqtisadi təməlin formalaşmasının başa çatması, cəmiyyətin mənəvi birliyinə nail olmaq, milli inkişafın əsas istiqamətlərini müəyyənləşdirmək, üçüncü mərhələdə isə ölkənin total modernləşməsini həyata keçirmək təşkil edir. Yəni Heydər Əliyev dövlətçiliyi yaratdı və təsdiq etdi ki, sonrakı mərhələdə ölkənin geoiqtisadi təsdiqi öz həllini tapsın və həmin təməl üzərində Azərbaycan modernləşmə mərhələsinə qədəm qoysun.

Azərbaycan milli dövlət quruculuğunda varisliklə müasirləşmənin münasibəti 1993-cü ildən bu yana hər bir mərhələdə konkret dialektik vəhdətdə özünü göstərmişdir. 1993-1995-ci illər daxili sabitliyin yaradılması mərhələsidir. Bu mərhələdə dövlətçiliyə olan təhlükələr neytrallaşdırıldı. Bununla dövlət quruculuğu baxımından vacib məqsədlərə çatmaq mümkün oldu. Cəmiyyətin sosial, mədəni, hüquqi, iqtisadi, siyasi və başqa fəaliyyət sahələrində müasirləşməyə yol açıldı. İdarəetmə ilə kadr yeniləşməsi və cəmiyyətin demokratikləşməsi yeni səviyyədə əlaqədə özünü göstərdi. Bu mərhələ 1995-2003-cü illəri əhatə edir [bax: 7]. O dövr müasir Azərbaycan milli dövlətçiliyinin çox mühüm mərhələsini təşkil edir.

Bu, Azərbaycanın həmin mərhələdə dünyaya inteqrasiyasının aparıcı tərəfini təşkil edir. İkinci istiqamət isə ölkənin daxili potensialının aktuallaşması üçün uyğun siyasi, hüquqi, iqtisadi, mədəni və mənəvi-əxlaqi mühitin yaradılmasından ibarət idi. Bunlara Azərbaycanın modernləşmə kursunun təməlini hazırlamaq kimi də qiymət vermək olar. Yəni birinci mərhələ müstəqil dövlət qurculuğunun ümumi istiqamətlərini müəyyən etdisə, ikinci mərhələ müasir dünyanın tələb etdiyi səviyyədə dövlətçiliyin inkişafını təmin etməyi, ənənə ilə müasirliyin konkret dialektikasını tapmağı qarşıya məqsəd kimi qoydu. Bunun reallaşması mexanizmi isə Azərbaycan üçün optimal bir model üzrə aparıldı.

1995-2003-cü illərdə Azərbaycan dövlətçiliyinin fundamentinin qurulması başa çatdı. Bu mərhələdə dövlətimiz artıq özünün daxili və xarici siyasətində yeni vəzifələri qarşısına qoymalı idi. Dövlət başçısı İlham Əliyev fəaliyyətinin əsasında isə məhz ümummilli lider Heydər Əliyevin yaratdığı dövlətçiliyin təməl prinsiplərinə dayanaraq milli dövlətçiliyi daha da möhkəmləndirmək və inkişaf etdirmək missiyası dururdu. Bu, tarixi bir missiya idi.

Azərbaycan Prezidenti İlham Əliyev bu missiyanı yerinə yetirmək üçün ümummilli lider Heydər Əliyevin milli dövlət quruculuğu fəlsəfəsinin əsas prinsiplərini inkişaf etdirməli idi. O prinsiplərin mərkəzində təbii ki, dövlət quruculuğunda varisliklə müasirləşmənin

vəhdəti dururdu. Prezident İlham Əliyevin fəaliyyəti tam sübut edir ki, o, bu vəzifənin öhdəsindən yüksək səviyyədə gəlməyi bacardı. Onun milli dövlət quruculuğu fəlsəfəsini inkişaf etdirməsinin əsas istiqamətlərində bu özünü aydın şəkildə göstərir [bax: 5, 6].

Biz 1-ci Qarabağ savaşında toparlana bilmədik. Lakin 2-ci Qarabağ savaşında biz fərqli mənzərənin şahidi olduq. Hər iki halda nəticə vahid ideologiyanın yoxluğuna və yaxud varlığına söykənirdi. Azərbaycançılıq ideologiyasının yoxluğu bizi məğlubiyyətə sürüklədiyi qədər, onun varlığının cəmiyyət həyatındakı təntənəsi bizim müzəffər qələbəmizin təməl daşından oldu. Bu gün qətiyyətlə, tam əminliklə söyləyə bilərik ki, Azərbaycançılığın mükəmməl ideologiya olaraq cəmiyyətimizdə mövcudluğu hər zaman milli dövlətçiliyimizin əbədiyaşarlılığının da qarantı olacaqdır.

## *Nəticə*

Tarixən Azərbaycan bölgədə mədəniyyətlərin və dövləti maraqların kəsişdiyi yer olub. Qədimdən bu yana Qafqazla bağlı siyasətdə Azərbaycan faktoru əsas rol oynayıb. İndi geosiyasi durum o dərəcədə aktuallıq kəsb edib ki, Azərbaycan dövlətçiliyinin inkişafını bu faktoru nəzərə almadan təsəvvür etmək olmaz. Yəni dövlətin geosiyasi statusu məsələsi dövlətçilik fəlsəfəsinin əsas punktlarından biri olub. Yeni mərhələdə Azərbaycan dövlətinin regionun lideri statusunu alması kompleks şəkildə yeniləşmələrin, müxtəlif yönlü islahatların və cəmiyyətin təkamülünün optimal variantının seçilməsinə bağlıdır. Ona görə də qarşıda duran illərdə Azərbaycanda milli dövlət quruculuğunun mərkəzi prinsiplərindən biri bölgə liderliyi mövqeyində möhkəmlənmək olacaq. Ölkənin daxili faktorları ilə qloballaşma parametrləri arasında bu cür sıx bağlılığın yaranması prinsipial olaraq yeni situasiyadır. Coğrafi mövqenin dövlətçiliyə təsiri aspektində burada təhlil edilməli çoxlu sayda məqam vardır. Həmin bağlılıqda Azərbaycanda milli dövlət quruculuğu və cəmiyyətin təkamülü baxımından olduqca böyük əhəmiyyəti olan bir vəzifəni də vurğulamaq lazım gəlir. Biz, Milli İdeyanın formalaşmasını nəzərdə tuturuq.

Milli İdeyanın ana xəttinin dövlətçililiyin təşkil etməsi barədəki ideya ilə tam razılaşmaq lazımdır. Bu mənada Azərbaycançılıq milli ideya kimi bütün funksiyası ilə Azərbaycanın müstəqil və demokratik dövlət olmasına xidmət edir. Azərbaycançılıq obrazı toplumun ictimai şüurunda yarandı, möhkəmləndi və aktuallaşdı. Azərbaycançılıq ruhu milli ideyanı milli tarixə, ana dilinə, mədəniyyət ənənəsinə və özgürlüyünə, dini tolerantlığa hörmət əsasında, həmçinin dövlətçiliyin bu gününü və gələcəyini dünya siyasətinin suveren subyekti, qlobal inteqrasiyanın ayrıca vahidi kimi formalaşdırır.

*Elmi yenilik:* Yeni mərhələdə dövlətçilik fəlsəfəsinin inkişafında "intellektual sərvət" anlayışı əhəmiyyətli yer alır. Azərbaycanın intellektual inkişaf modelinə keçməsi ölkə başçısı İlham Əliyevin dövlət quruculuğu konsepsiyasında indi əsas hədəfdir. İntellektual inkişaf modeli informasiya cəmiyyətini formalaşdırmağa doğru aparır. İnformasiya cəmiyyətinin formalaşması vətəndaş cəmiyyətinin qurulmasının bir aspektidir. Deməli, dövlət quruculuğunun bu mərhələsində vətəndaş cəmiyyətinin bazasının yaradılması intellektual inkişaf modelinin hazırlanmasında konkret ifadəsini tapmalıdır. Bu mənada Azərbaycan Prezidenti İlham Əliyevin ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulan dövlətçilik xəttini davam etdirməsinin ciddi elmi və fəlsəfi təhlilə əsaslanması böyük şans yaradır. Bu gün ölkəmiz bölgənin lider dövləti olaraq müxtəlif sahələrin təhlükəsizliyi sisteminin əsas faktoruna çevrilib.

*Tətbiqi əhəmiyyəti:* Məqalədən siyasi elmlər, tarix, fəlsəfə tarixi ilə məşğul olan mütəxəssislər, ali məktəblərin bakalavr və magistr pilləsində təhsil alan tələbələr, ümummilli lider Heydər Əliyevin irsini araşdıran tədqiqatçılar istifadə edə bilərlər. Təqdim olunan

məqalədən siyasi elmlər, tarix və fəlsəfə tarixinə dair dərslik, dərs vəsaitləri və proqramların hazırlanmasında elmi mənbə kimi istifadə oluna bilər.

ƏDƏBİYYAT

1. Cəfərov N. Azərbaycanlılar: etnokulturoloji birliyin siyasi-ideoloji üfüqləri. Bakı, XXI, 2001, 176 s.
2. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. Bakı, 2002, 232 s.
3. Хабермас Ю. Вовлечение другого. Очерки политической теории. М., 2001, 417 s.
4. Луман Н. Общество как социальная система. Пер. с нем./ А.Антоновский. М.: Издательство «Логос», 2004, 232 s.
5. Qocatürk N. Türkün Yaddaş Kitabı. Bakı, "Nurlan", 2005, 424 s.
6. Qocatürk N. İ.Əliyev: İpək Yolu sivilizasiyası və Azərbaycan diplomatiyası. Bakı, "Nurlan", 2008, 472 s.
7. Mehdiyev R. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. İyun 1971- iyun 2001, Bakı, 2006, 622 s.

УДК 1(091)

*Н.Годжатурк*
*Бакинский Государственный Университет*

## ИДЕЯ «АЗЕРБАЙДЖАНСТВО» ГЕЙДАРА АЛИЕВА КАК ОСНОВА НАШЕЙ СОВРЕМЕННОЙ ГОСУДАРСТВЕННОСТИ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Гейдар Алиев, азербайджанская идеология, государство, народ, память, наследник, традиция

В глобализованном мире каждому независимому национальному государству необходимо иметь идеологию, способную поддерживать его существование. Этим необходимость идеологии для национального государства не исчерпывается. Необходимо признать, что существует внутренняя потребность в идеологии для консолидации современного общества. Дело в том, что в условиях, когда коммуникационная сеть сильно развита и информация, сотрясающая общество, поступает со всех сторон, возникает необходимость обеспечения внутреннего единства и целостности общества. Это становится еще более важным, когда общество состоит из многих социальных классов. Таким образом, становится актуальным существование социологических и идеологических систем, объединяющих социальные слои с разными интересами. Пока человеческий фактор важен для человечества, идеология становится незаменимым фактором.

С этой точки зрения применение идеологии азербайджанства как идеологии к государственному строительству является новшеством в истории нашей государственности и важным аспектом для изучения. В современной азербайджанской государственности азербайджанство как идеология сложилось таким образом, что его приняло все общество. Известно, что азербайджанство как идеология сформировалось в начале прошлого века. Однако в представлении общенационального лидера современной азербайджанской государственности Гейдара Алиева оно приобрело

глубокий идеологический и государственнический смысл. Для общества переходного периода она вначале играла роль объединяющей идеи.

UDC 1(091)

*N.Gojaturk*
*Baku State University*

IDEA OF "AZERBAIJANISM" OF HEYDAR ALIYEV
AS THE BASIS OF OUR MODERN STATEHOOD
*SUMMARY*

*Key words:* Heydar Aliyev, Azerbaijani ideology, state, people, memory, heir, tradition

In a globalized world, it is necessary for each independent nation-state to have an ideology that can maintain its existence. The necessity of ideology for the nation-state is not limited to this. It is necessary to accept that there is an internal demand for ideology for the consolidation of modern society. The point is that at a time when the communication network is highly developed and the information that shakes the society comes from all sides, there is a need to ensure the internal unity and the integrity of the society. This becomes even more important when a society consists of many social classes. Thus, the existence of sociological and ideological systems that unite social sections with different interests becomes relevant. As long as the human factor is important for humanity, ideology becomes an indispensable factor.

In this regard, the application of the ideology of Azerbaijanism as an ideology to state building is a novelty in the history of our statehood and an aspect that is important to study. In modern Azerbaijani statehood, Azerbaijaniism as an ideology has developed in such a way that it has been accepted by the whole society. It is known that Azerbaijaniism was formed as an ideology at the beginning of the last century. However, according to Heydar Aliyev, the national leader of modern Azerbaijan statehood, this has a deep ideological and statistical meaning. For a society in transition, it initially served as a unifying idea.

***Daxil oldu: 11.01.2023-cü il***